# ŞAHTAXTI ARXEOLOJİ KOMPLEKSİNİN QƏBİR ABİDƏLƏRİ

**Qəhrəman Ağayev, Emin Məmmədov**

*AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu, Bakı*
*agagahraman@mail.ru, emint82@mail.ru*

Şahtaxtı arxeoloji abidələr kompleksinin öyrənilməsində ən tutarlı mənbələrdən biri qəbir abidələridir. Ümumiyyətlə, qəbir abidələrindən tapılan maddi-mədəniyyət nümunələri qədim tayfaların məişət və təsərrüfat həyatlarının, adət və ənənələrinin, dini inanclarının, bir sözlə, maddi mədəniyyətlə yanaşı, mənəvi mədəniyyətin də öyrənilməsi baxımından zəruridir. Bu həm də qonşu tayfalarla mədəni, iqtisadi və etnogenetik əlaqələrini öyrənmək üçün ətraflı fikir söyləməyə imkan verir. Naxçıvan Muxtar Respublikası ərazisində qəbir abidələrinin tədqiqi 1895-ci ildə N.V.Fyodorov tərəfindən Qızılburun yaxınlığında başlanmışdır. 1926-cı ildə İ.İ.Meşşaninov da bu ərazidə tədqiqat işləri aparmışdır. Naxçıvan MR ərazisində qəbir abidələri Ə.Ə.Ələkbərov, O.H.Həbibullayev, V.H.Əliyev, Q.Aslanov, Q.H.Ağayev, M.H.Seyidov, B.İ.İbrahimov, S.Qaşqay, A.Q.Seyidov və b. tərəfindən də tədqiq edilmişdir.

Şahtaxtı abidələrində ilk tədqiqat işləri 1936-cı ildə Ə.Ə.Ələkbərov tərəfindən aparılmışdır. Həmin vaxt Şahtaxtının Gavurqala adlanan yaşayış yerində kəşfiyyat xarakterli qazıntılar aparılmış, abidənin şimal, şimal-şərq və şərq hissələrini əhatə edən nekropolda isə 3 qəbir abidəsi tədqiq edilmişdir. Aparılan arxeoloji tədqiqatlar nəticəsində çox qiymətli arxeoloji materiallar aşkar edilmişdir. İlkin tədqiqatların nəticəsi olaraq Gavurqalanın və nekropolun son tunc-erkən dəmir dövrünə aid olması müəyyələşdirilmişdir. Qəbirlərdən aşkar edilən at skeleti, qızıl toqqa və zoomorf formalı unikal gil qab Şahtaxtı tayfalarının o dövrdəki yüksək mədəniyyətindən xəbər verir. Hazırda Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan həmin zoomorf gil qab tərəfimizdən Şahtaxtı arxeoloji abidələr kompleksinin simvolu kimi qəbul edilmişdir.

Uzun müddətdən sonra, XX əsrin 60-cı illərinin sonu-70-ci illərinin əvvəllərində Naxçıvan bölgəsi abidələrinə maraq genişləndi. Şahtaxtı abidələri də bu səbəbdən diqqət mərkəzindən kənarda qalmadı. 1968-1971-ci illərdə V.H.Əliyev tərəfindən Şahtaxtı nekropolunda bir neçə qəbir abidəsi tədqiq edildi. 1978-ci ildə arxeoloqlar Qardaşxan Aslanov və Qəhrəman Ağayev tərəfindən Şahtaxtı arxeoloji kompleksində 33 qəbir abidəsi aşkar olunaraq tədqiq edildi. Bütün bu tədqiqatların nəticəsi olaraq Şahtaxtı abidələrinin son tunc-erkən dəmir dövrünə aid olması fikri söylənilirdi.

Lakin, nəhayət ki, 1979-cu ildən etibarən Şahtaxtı abidələrində fundamental tədqiqat işlərinə başlanıldıqdan sonra bu möhtəşəm abidənin daha qədim dövrlərə aid olması müəyyənləşdirildi. Qədim yaşayış yerində – Gavurqalada aparılan qazıntı işləri zamanı Şahtaxtı abidələrinin daha qədim dövrlərə aid olması ehtimalı yarandı. Orta tunc dövrünə aid olan 2-ci nekropol məhz həmin il aşkar edilmişdi. Şahtaxtı ərazisində qəbir abidələrinin öyrənilməsi zamanı ərazidə iki nekropol aşkar edilmişdir ki, bunların da ümumi sahəsi 15 hektardan artıqdır. Nekropol-1 adlandırdığımız son tunc-erkən dəmir dövrünə aid sahə 10 ha-dan artıq ərazini əhatə edir. Nekropol-2 adlandırdığımız, orta tunc dövrünə aid olan sahə isə təqribən 5 ha-dan artıq ərazini əhatə edir. Onu da qeyd edək ki, 2-ci nekropolun ərazisi hələ sovetlər dövründə əhaliyə torpaq sahələri kimi verildiyindən, onun sahəsi təxmini müəyyənləşdirilmişdir. Orta tunc dövrünə aid olan 2-ci nekropolda 3 qəbir abidəsi müxtəlif sakinlərin həyətlərində aşkar olunaraq tədqiq edilmişdir.

Şahtaxtı qəbirlərinin demək olar ki, hamısı daş qutu qəbirlərdən ibarət olmaqla kromlexlə əhatələnmişdir. Nekropol-1-də aşkar edilən qəbirlərin bir hissəsi ekzogen hadisələr üzündən, yağış sularından torpağın yuyulması nəticəsində kəskin surətdə eroziyaya uğramış və bu üzdən nekropolda olan daş qutu qəbirlərdən bir neçəsi tamamən üzə çıxmışdır. Qəbirlərin böyük əksəriyyəti nisbətən işlənmiş iri qaya parçalarını yan-yana qoymaqla qurulmuş, üzərlərinə isə nisbətən cilalanmış iri qaya parçaları qoyulmuşdur. Qəbirlərin bəzilərində hər iki tərəfdən, coğrafi baxımdan şərq və cənub istiqamətlərində giriş və çıxış üçün yol qoyulmuşdur. Tədqiq edilmiş qəbirlərin ölçüləri bir-birindən fərqlənir. Ən kiçik daş qutu qəbrinin uzunluğu 1m 10 sm, eni 60 sm, dərinliyi isə 1 m, ən böyük qəbirin ölçüsü isə 320 sm x 160 sm x 180 sm-dir. Kromlexin diametri (ən kiçiyi) 3 m, ən böyüyünün diametri isə 30 m-dir.

Azərbaycanın və Cənubi Qafqazın digər yaşayış məskənlərində aparılmış arxeoloji tədqiqatlar zamanı kurqan və qəbirlərdən tapılmış keramika məmulatları ilə Şahtaxtı keramik məmulatları arasında oxşarlıqlar vardır. Onların üzərində basma, xətlərlə çəkilmiş üçbucaqlar, romb, dalğalı əyri xətlər, oyma naxışlar üstünlük təşkil edir. Buradan bu nəticəyə gəlmək olar ki, qəbir abidələri üçün xüsusi olaraq keramika məmulatları hazırlanmış, onların ornamentasiyaları ilə məişət qablarının bəzədilməsi arasında müəyyən fərqlər olmuşdur. Hələ qədim dövrlərdən tutqun rəngli (əsasən qara) obsidian Yaxın Şərq, Misir, Ön Asiya ərazilərində əsasən dəfn mərasimlərində daha çox işlədilmişdir. Qəbir abidələrindən obsidian mineralına çox rast gəlinməsi bu fikri söyləməyə imkan verir. Bu mineralın Naxçıvan MR ərazisindəki orta tunc dövrü qəbir abidələrindən də tapılması həmin ərazilər arasında müəyyən əlaqələrin olmasını göstərir.

Şahtaxtı nekropolunda aşkar edilən qəbirlərin heç birindən insan skeleti aşkar edilməmiş və beləliklə, Şahtaxtı nekropolunda dəfn adətinin hələlik inqumasiya və kremasiya formalarına da rast gəlinməmişdir. Ancaq tədqiq edilən qəbirlərdə kremasiya adətinə rast gəlinməsə də, bu üsulla dəfn olunma ehtimalında qalmışıq. Belə ki, ayrı-ayrı tədqiqatçıların söylədikləri müxtəlif dəfn adətlərinin heç birinə Şahtaxtı nekropolunda rast gəlinmədiyinə görə Şahtaxtıdakı dəfn adətinin kremasiya adətinə daha yaxın olması fikirindəyik. Qədim yaşayış yerinin Araz çayı ilə qədim Asnı çayının qovuşduğu yerin tam yaxınlığında yerləşməsi bizdə bu ehtimalın yaranmasına səbəb olur. Ərazidə daha geniş tədqiqatlar aparıldıqdan sonra ehtimallarımızın real olmasını söyləyə biləcəyik.